**Maralxanım Tofiq qızı Əliyeva,**[59]

# "XOR SİNFİ" FƏNNİNİN TƏDRİSİNDƏ MÜƏLLİMƏ VERİLƏN MÜASİR TƏLƏBLƏR

Hal hazırda cəmiyyətmizin bütün sahələrində gedən fundamental dəyişikliklər ali məktəblərdə tələbələrin peşə hazırlığında da öz əksini tapır və ixtisas fənlərinin tədrisinə dair yeni tələblərin yaranmasına gətirib çıxarır. Bu gün ixtisasçı-pedaqoqlara böyük ehtiyac duyulur. Belə ki, onlar öz işini və vəzifələrini yaxşı anlayan, öz bilik və təcrübələrini gənc nəslə ötürən, öz sahələrində dərin və hərtərəfli biliklərə malik, yeni innovasiyalı texnologiyaların istifadəsində mobillik nümayiş etdirən insanlar olmalıdır. Bütün bu söylənənlər gələcəyin musiqi müəllimlərinə də aiddir.

İncəsənətin əsas növlərindən biri musiqidir. O, böyük emosional təsir qüvvəsinə malik olaraq, insanın ideya etiqadının, əxlaqının formalaşmasında güclü vasitə kimi çıxış edir. Prof. J.Qədimovanın qeyd etdiyi kimi: «Musiqi sənəti hər bir xalqın, hər bir ölkənin mədəniyyət tarixinin tərkib hissəsini təşkil edir» (1,15.). Müasir dövrdə müstəqillik əldə etmiş respublikamızda böyüməkdə olan gənc nəslin hərtərəfli harmonik inkişaf etmiş şəxsiyyət kimi formalaşmasında musiqi təlim və tərbiyənin böyük əhəmiyyəti vardır. «Əgər…təhsilə verilən tələblərə diqqət yetirsək görərik ki, müasir məktəb, müasir təlim-tərbiyə sisteminin əsas vəzifələrindən biri də savadlı, bacarıqlı, mədəni olmaqla bərabər, həm də Vətənini sevən, onu qoruya bilən,sərvətlərini artıran bir insan, müstəqil respublikamız üçün vətəndaş yetişdirməkdir» (2, 6.).

Böyüməkdə olan gənc nəslin inkişafında, tərbiyəsində və mənəviyyatının zənginləşməsində xorla oxuma böyük rol oynayır. Xorla oxuma gənclərin şəxsiyyətinin formalaşması, onların yaradıcı qabiliyyətlərinin və musiqi zövqünün inkişafı üçün ən qüdrətli vasitələrdən biridir, çünki o, yüksək səviyyəli ifaçılıq bacarığını tələb edir. Buna görə də "Xor sinfi" fənni gələcəyin musiqi müəlliminin inkişafında xüsusi bir yer tutur. Xorla oxuma ən qədim yaradıcılıq növü olmaqla bərabər həm də incəsənətin ən demokratik növüdür. Xorla oxuma heç də xor ifaçılarından çox böyük vokal imkanlarını tələb etmir, xorun hər iştirakçısı onun üçün mümkün olan öz töhfəsini xorun səsələnməsinə əlavə edir. Lakin ifa olunan əsərin ümumi ideyası, ümumi həyacan, bədii obrazın təsiri onları birləşdirir və hətta özfəaliyyət xoru belə dinləyicilərə böyük bir qüvvə ilə emosional təsir bağışlaya bilər.

Xor fənnini tədris edən müəllim peşə fəaliyyətini uğurla həyata keçirmək üçün aşağıdakı qabiliyyət və bacarıqlara malik olmalıdır:

- peşə vərdişlərinə sahib olmalı;
- müxtəlif həyati situasiyalara çevik adaptasiya olmalı,
- lazımi biliklərə müstəqil yiyələnməli və onları peşə fəaliyyətində yaranan problemlərin həlli üçün məharətlə istifadə etməli;
- müstəqil tənqidi təfəkkür, real gerçəklikdə yaranan problemlərin həlli yollarını görmə bacarığına malik olmalı və müasir texnologiyalar əsasında onların səmərəli həlli üçün metod və üsulları tapma bacarığı;
- yeni ideyalar vermək və onları yaradıcı düşüncə əsasında mənimsəmək;
- informasiya ilə savadlı işləmə bacarıq və vərdişlərinə malik olmalı, müəyyən problemlərin həlli üçün informasiyanın axtarışına, problemin həlli üçün fərziyyə yürütmə və təhlil etmə, məsələlərin həllərini ümumiləşdirmə və analoji məsələlərlə müqayisə aparma, nəticələri əsaslandırma, onları yeni problemlərin həlli üçün tətbiq etmə bacarığına malik olmalı;
- müxtəlif sosial qruplarla kommunikabellik və kontakt yaratma bacarığı;
- öz intellektual, mədəni və mənəvi səviyyəsini müstəqil inkişaf etdirmə qabiliyyətinə malik olma.

Xor sinfinin müəlliminin əsas vəzifəsi gənc nəsildə xor ifaçılığına qarşı sevqi yaratmaq, labüd olan vərdişləri formalaşdırmaq və xorla oxumanı bir tələbat kimi onlarda tərbiyə etmək. Xor dərslərində notla və solfecio oxuma vərdişləri geniş istifadə olunmalı, daha sonra isə xor partituralarının oxunuşu vərdişləri mənimsənilməlidir. Lakin notla oxu sluxa oxu (eşitmə yolu ilə oxu) ilə növbələnməlidir ki, bu üsul musiqi yaddaşını möhkəmlədir.

Xor fənninin tədris olunduğu bütün müddət ərzində müəllim tələbələrin ən vacib vokal-xor vərdişlərinin (nəfəs, səsaparıcılığı, ansambl, kök, diksiya və s.) formalaşması və inkişafı prosesinə nəzarət etməli, tədricən səs diapazonunu genişləndirməli və tədrisi məsələləri mürəkkəbləşdirməlidir.

Repertuar seçimi də janr və məzmun cəhətdən rəngərəng olmalıdır: buraya Azərbaycan və xarici bəstəkarlarının klassik əsərləri, kütləvi mahnılar, müasir musiqi və xalq mahnıları daxil olunmalıdır. Repertuar seçdikdə müəllim belə əsərlərə üstünlük verməlidir ki, onların bədii səviyyəsi və ideya məzmunu yüksək olsun. Müəllim unutmamalıdır ki, xorla oxuma gənc nəslin vətənpərvər, bədii-estetik və mənəvi tərbiyəsində qüdrətli bir vasitədir.

Poetik mətn, musiqi və poetir cümlə üzərində iş xor məşğələlərində xüsusi yer tutmalıdır. Həmçinin əsərin formasının duyumu, kulminasiyaları qeyd etmə bacarığının aşılanması vacib məsələlərdən biridir. Tədricən xor ifaçılığı təcrübəsi toplandıqca və tələbələr vokal-xor vərdişlərinə yiyələndikcə, müəllim repertuarı mürəkkəbləşdirə bilər. Qrup məşğələlərinin imkanlarından geniş və hərtərəfli istifadə edərək, müəllim unutmamalıdır ki, xor – kollektiv deməkdir. Belə ki, tədris prosesini təşkil edərkən kollektiv iş formalarından faydalanmaq, onları qrup, xırda qrupcuqlar və hətta fərdi iş formaları ilə koordinasiya etmək məqsədəuyğundur. Belə təşkilati prinsip bir ifaçı kollektivi kimi sinfin uğurlu işinə yardım edəcəkdir.

Xor məşğələlərində müəllim-xormeysterdən aşağıdakılar tələb olunur:

- səslənmənin xarakterini izah etmək;
- vokal-xor bacarıqlarını inkişaf etdirmək və möhkəmləndirmək;
- yeni əsərləri öyrətmək və onların müəllifləri barəsində qısa məlumatvermək;
- təlim səviyyəsinin monitorinqini aparmaq;
- xor priyomları və ifa vasitələri barəsində anlayışları genişləndirmək;

[59] **ADPU**

- ifanın bədii ifadəliliyi üzərində çalışmaq, daima xor kollektivinin ifaçılıq ustalığının daha da mükəmməlləşdirilməsinə istiqamətlənmək.

Bütün bu məsələlərin səmərəli həlli üçün müəllim müxtəlif texnologiyalardan istifadə etməlidir. Məsələn, *lokal texnologiya*: burada diqqət təlim-tərbiyə prosesinin ayrı-ayrı hissələrində, xüsusi didaktik və tərbiyəvi məsələlərin həllində, ayrıca anlayışların formalaşdırılmasında və prinsipal yanaşmalarda cəmləşdirilir. Bu da tədris fəaliyyətinin müxtəlifliyinə, rəngərəngliyinə, dərsin hissələrinin sağlamlıq baxımından düzgün qurulmasına imkan yaradır. Yuxarıda qeyd etdiyimiz xormeyster-müəllimə verilən tələblərdən görünür ki, xor məşğələsi kombinələşmiş dərs tipi kimi çıxış edir ki, onun prosesində dərsin müxtəlif hissələrində öyrənənlərin müxtəlif fəaliyyət növləri fəallaşır və üstünlük təşkil edir. Lokal texnologiya müəllimə xor məşğələsinin hər bir hissəsinin, mərhələsinin əsas məqsəd və vəzifələrini səlis, dəqiq görməyə imkan yaradır, tələbə və müəllimin birgə fəaliyyətinin əsas istiqamətini konkretləşdirir, diqqəti dərsin hər bir ayrı hissənin daha vacib məsələsində cəmləşdirir.

Bundan başqa xor fənni qrup formasında keçirildiyi üçün, dar zaman çərçivəsində qoyulan məqsədlərə nail olmaq üçün və təlim prosesinin səmərəliliyi üçün *interaktiv təlim texnologiyalarından* və metodlardan burada çox geniş istifadə olunmalıdır ki, bunlar vokal-xor vərdişlərinin mənimsənilməsi prosesinin fəallaşdırır, kollektiv yaradıcılığa yeni stimul verir, xor dərsində əməkdaşlıq atmosferində sanki vokal və xor "sirrlərinin" birgə idrakı abu-havasını yaradır.

İnteraktiv texnologiyanın tətbiqindən danışarkən bir daha qeyd etməliyik ki, xorla oxuma artıq özü-özlüyündə interaktiv məşğələdir. Burada səs tellərinə məxsus olan bir xüsusiyyət – insanın eşitdiyi səs dalğalarının titrəməsini təkrar etmək, kopiyalamaq kimi bir funksiya işə salınır. İntonasiya defekti olan şagirdin səs telləri onu əhatə edən xor səslənməsinin təsiri altında başlayır düzgün işləməyə, bununla da onun vokal intonasiyası yaxşılaşır. Beləliklə, zəif intonasiyası olan tələbələrin intonasiyalarının əhəmiyyətli dərəcədə düzəlməsi xor təliminin interaktiv olduğunun əyyani sübutudur.

Tələbələr biri-birindən öyrənir (xorda hər zaman bir-neçə ifaçı olur ki, onların təbiətdən gələn güclü vokal qabiliyyətləri olur). "Xor sinfi" fənninin bütün kursu boyu tətbiq olunan interaktiv texnologiya kollektiv işin müxtəlif metod və formalarının daha geniş istifadəsinə imkan yaradır. Həmçinin xor fənninin tədrisinin sonuncu mərhələsində *peşəkar-rollu* texnologiyalardan da istifadə etmək faydalıdır. Onların məzmunu bundan ibarətdir ki, öyrənənlər (öz şəxsi istəyləri ilə) xor dirijoru rolunda çıxış edə bilər. Bundan başqa tələbələr aranjimançı rolunda da (məsələn, sevdiyi bir xalq mahnısını xor üçün işləyə bilər), hətta xor bəstəkarı rolunda da çıxış edə bilərlər. Bu texnologiya ilə işin nəticələri aşağıdakılar kimi ola bilər: tələbələrin yaradıcı fəaliyyətlərinin aktivləşdirilməsi, yaradıcı bacarıq və vərdişlərin formalaşdırılması, idrak fəaliyyətinin inkişafı, peşakar kompetensiyaların formalaşması, təlim motivasiyasının yüksəlməsi. Xor fənninin tədrisi dövründə müəllim qiymətləndirmənin üç formasından istifadə etməlidir – cari, aralıq və yekun. Xor sinfinin müəllimi təlim nəticələrinin nəzarətini, monitorinqini və qiymətləndirilmə sistemini aşağıdakı forma və metodlarla aparmalıdır:

Cari nəzarət metodu:

– seminar məşğələlərində auditoriyada praktiki işə görə frontal qiymətləndirmə;
– xor partiyalarının cari təhvil verilməsi;
– xorla oxuma metodikasına dair mühazirə materialının bilik səviyyəsinin qiymətləndirilməsi.

Aralıq nəzarət formaları:

– sərbəst işlərin təhvili;
– kollokviumların verilməsi.

Yekun qiymətləndirmə metodu:

– imtahanda praktiki və nəzəri suallara cavab.

Tələbələrin təlim nəticələrinin nəzarəti müəllim tərəfindən cari məşğələlər, davamiyyət, fərdi və qrup halında partiyaların təhfili və mühazirə materialının bilik səviyyəsinin yoxlanılması əsasında aparılır. Tələbəni qiymətləndirərkən həmçinin onun müxtəlif konsert, müsabiqə, ali məktəbin ictimai işlərində iştirakı da nəzərə alınmalıdır. Hər dərsdə tələbənin bilik səviyyəsini qiymətləndirərkən, müəllim hər tələbənin öncəki hazırlıq səviyyəsinə əsaslanaraq, onun tədris materialının mənimsənilməsi dinamikasını, səyylərini təhlil etməli və onun fənnə qarşı marağını artırmalı və stimullaşdırmalıdır.

Yekun qiymətləndirilmə zamanı aşağıdakılar nəzərə alınmalıdır:

– tələbənin semestr ərzində işinin qiymətləndirilməsi;
–tələbənin semestr ərzində konsertlərdə çıxışı.

Beləliklə, gördüyümüz kimi, müasir dövrdə xor sinfinin müəllimi həm dərsləri yeni texnologiyalar əsasında, həm də qiymətləndirməni müasir formalarla aparmanı bacarmalıdır.

**ƏDƏBİYYAT:**

1. J.Qədimova. Musiqinin tədrisi metodikası. Bakı, 2007
2. F.Hidayətova. Musiqi və vətəndaşlıq tərbiyəsi. Bakı, 2009
3. N.Mirzəyeva. Xorşünaslıq. Bakı, 2007
4. E.Dadaşova, M.Əliyeva. Dirijorluq və onun tədrisi metodikası. Bakı, 2013
5. L.Veysova. Fəal təlim texnologiyaları: psixoloji mexanizmlər. Bakı, 2008

**XÜLASƏ:**

**"Xor sinfi" fənninin tədrisinə verilən müasir tələblər.**

Böyüməkdə olan gənc nəslin inkişafında, tərbiyəsində və mənəviyyatının zənginləşməsində xorla oxuma böyük rol oynayır. Müasir dövrdə xor sinfinin müəllimi həm dərsləri yeni texnologiyalar əsasında, həm də qiymətləndirməni müasir formalarla aparmanı bacarmalıdır.

**РЕЗЮМЕ:**

**Современные требования к преподаванию предмета «хоровой класс».**

В развитии, воспитании и духовном обогащении подрастающего поколения хоровое пение играет большую роль. В современных условиях учитель хорового класса должен не только уметь вести уроки при помощи новых технологий, но и проводить оценивание в современной форме.

**SUMMARY:**

**Modern requirements for teaching “choral class”.**

Choral singing plays an important role in the development, upbringing and moral enrichment of the younger generation. In modern conditions, a choral class teacher should not only be able to conduct lessons with the help of new technologies, but also conduct assessment in a modern form.

**EƏYÇİ: dos.E.Vəliyeva**